*Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız.*

*Heydər Əliyev.*



# GÖYƏZƏN

QAZAX RAYONUNUN İCTİMAİ - SİYASİ QƏZETİ

№ 16 (9224) | 31 avqust 2016-cı il | Qəzet 1932-ci ildən çıxır | Qiyməti 50 qəpik

## Qazax rayonunun Qazax-Kosalar avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

**1.** Altı min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən Qazax-Kosalar avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə 3,0 (üç) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

***Bakı şəhəri, 19 avqust 2016-cı il.***

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Qazaxda olmuşdur





**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Qazax rayonunda olmuşdur.**

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin adını daşıyan parka gələrək ümummilli liderin abidəsini ziyarət etmiş, abidə önünə gül-çiçək dəstələri qoymuşlar. Sonra komitə sədri Ağstafa, Tovuz və Qazax rayonlarının sakinlərini qəbul etmişdir.

Daha sonra Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qazax rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə konfrans keçirilmişdir.

Ədəbiyyat Muzeyində keçirilən konfransda idarə, müəssisə, təşkilat rəhbərləri, ictimaiyyət və KİV nümayəndələri iştirak etmişdir. "Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik" adlı konfransda "Multikulturalizm ili" ilə əlaqədar respublikamızda görülən işlərdən söz açılmışdır.

Konfrans "Fitnə" sənədli filminin nümayişi ilə öz işinə başlamışdır.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov konfransı giriş sözü ilə açdıqdan sonra məruzə ilə çıxış etmişdir. Qeyd etmişdir ki, bütün dünyada Azərbaycan multikultural ölkə kimi nümunə göstərilir. Eyni zamanda ölkəmiz tolerant ölkə olduğunu bəşəriyyətə bir daha sübut etmişdir. Bu gün Azərbaycan dövlətinin siyasətində multikulturalizm və tolerantlıq mühüm yer tutur. Respublikamızda dilindən və dinindən asılı olmayaraq bütün xalqlar mehriban bir ailə kimi yaşayır. Bu da dövlət başçısının ölkəmizdə sabit və ardıcıl siyasət apardığını bir daha aydın şəkildə göstərir.

Komitə sədri M.Qurbanlı konfransda çıxış edərək dövlət və din münasibətlərindən söz açmışdır. Qeyd etmişdir ki, dini münasibətlərin normal olması üçün ölkəmizdə münbit şərait vardır. Respublikamızda müxtəlif xalqların nümayəndələri öz dini ayinlərini sərbəst şəkildə həyata keçirə bilirlər. Bunun üçün ölkəmizdə hər cür şərait vardır. M.Qurbanlı bildirmişdir ki, lakin ölkəmizdə dindən sui istifadə etmək istəyənlər də vardır. Belə halların qarşısı dövlətimiz tərəfindən qətiyyətlə alınır. Respublikamızda dini radikal qruplara qarşı ciddi mübarizə aparılır.

Sonra AYB Qazax zona filialının sədri Barat Vüsal və başqaları çıxış edərək mövzu ətrafında öz fikir və mülahizələrini bildirmişlər.

**Elçin İSMAYIL**

## Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov Qazax rayonunda olmuşdur

**Respublika Prezidenti İlham Əliyevin 29 aprel 2016-cı il tarixli Sərəncamı ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Qazax filialı Bakı Dövlət Universitetinin Qazax filialı hesab edilmişdir. Bununla əlaqədar olaraq BDU-nun rektoru, akademik Abel Məhərrəmov ikinci dəfə Qazax rayonunda olmuşdur.**



Əvvəlcə BDU-nun Qazax filialının yeni tədris korpusunun, tələbə qızlar və oğlanlar üçün yataqxana binalarının tikintisi üçün nəzərdə tutulmuş əraziyə baxış keçirilmişdir.

Sonra universitetin rektoru, akademik Abel Məhərrəmov BDU-nun Qazax filialının müəllim və tələbə kollektivi ilə görüş keçirmiş və filialın yeni təyin olunmuş direktoru, coğrafiya elmləri doktoru, professor Vüsət Əfəndiyevin təqdimatı olmuşdur.

Tədbirdə BDU-nun rektoru, akademik Abel Məhərrəmov çıxış edərək universitetin tarixindən, tələbə, müəllim kontingentindən, universitetin iş prinsipindən danışmış və yeni yaradılmış filialın da Bakı Dövlət Universiteti səviyyəsində inkişafı üçün lazımi işlərin görüləcəyini qeyd etmişdir. Qazax rayonunda universitetin inkişafı üçün lazımi şəraitin yaradılmasına dəstək olan Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova minnətdarlığını bildirmişdir.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbirdə çıxış edərək Azərbaycan Dövlət Pedaqoji Universitetinin Qazax filialının Bakı Dövlət Universitetinin Qazax filialı olması ilə əlaqədar verdiyi sərəncamla bağlı rayon ictimaiyyəti və ziyalılar adından dövlət başçısına minnətdarlığını bildirmişdir. Qeyd etmişdir ki, Ölkə Prezidentinin sərəncamı qazaxlılar tərəfindən yüksək dəyərləndirilir. Dövlət Başçısının bu sərəncamı Qazax ziyalılarına verilən dəyərin, göstərilən diqqət və qayğının töhfəsi kimi qiymətləndirilir. R.Babaşov çıxışı zamanı filialın maddi texniki bazasının qurulması, genişləndirilməsi üçün lazımi köməkliklərin göstəriləcəyini də qeyd etmişdir.

Sonda filialın yeni təyin olunmuş direktoru, coğrafiya elmləri doktoru, professor Vüsət Əfəndiyev çıxış edərək ona göstərilən etimada görə ölkə rəhbərliyinə, Azərbaycan Respublikasının Təhsil Naziri Mikayıl Cabbarova və Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmova dərin minnətdarlığını bildirmiş və ona göstərilən bu etimadı layiqincə doğruldacağını vurğulamışdır.

**Elçin İSMAYIL**

## MİLLİ MƏCLİSİN DEPUTATI XANHÜSEYN KAZIMLI QAZAX RAYONUNUN SƏRHƏD KƏNDİNDƏ YERLİ SAKİNLƏRLƏ VƏ ŞƏHİD AİLƏSİ İLƏ GÖRÜŞMÜŞDÜR



**Milli Məclisin deputatı Xanhüseyn Kazımlı bu ilin aprel ayında gedən döyüşlərdə şəhid olmuş Mühüd Orucovun doğulub boya-başa çatdığı Fərəhli kəndində olmuş, şəhidin ailə üzvləri ilə görüşmüşdür. Görüşdə şəhid kapitanın keçdiyi şanlı döyüş yolundan söz açılmış, igidliyi barədə danışılmışdır.**

Sonra X.Kazımlı rayonun Ermənistanla ən yaxın məsafədə yerləşən Məzəm kəndində olmuş, yerli sakinlərlə görüşmüşdür. Evlərin divarlarındakı güllə izlərinə, düşmən tərəfindən açılmış atəş nəticəsində çilik-çilik olmuş pəncərə şüşələrinə baxan millət vəkili kənd sakinlərinə həmişə onların yanında olduqlarını bildirmişdir. Evlərin qarşısına çəkilmiş istinad divarlarının əhəmiyyətini qeyd edərək rayon rəhbərliyinin həyata keçirdiyi bu işi yüksək qiymətləndirmişdir.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov evlərin qarşısına çəkilən müdafiə hasarları barədə qonağa məlumat vermiş, indi kənd sakinlərinin təhlükəsiz yaşadıqlarını, hər cür diqqət və qayğı ilə təmin olunduqlarını bildirmişdir.

Kənd sakinləri evlərin qarşısına müdafiə divarları çəkildikdən sonra kənddə təhlükəsiz yaşadıqlarından, hər cür diqqət və qayğı ilə təmin olunduqlarından danışmışlar. Qeyd etmişlər ki, elan olunmamış bu müharibə başlayan vaxtdan indiyə kimi ilk dəfədir ki, onlar öz doğma evlərində, həyətlərində qorxusuz yaşayır, düşmənin atəş nöqtələrinin çox yaxın məsafədə yerləşməsinə baxmayaraq asudə həyat sürürlər.

## "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun həyata keçirilməsi ilə bağlı təxirəsalınmaz vəzifələr haqqında

### Qazax rayon İcra Hakimiyyəti Başçısının Sərəncamı

Hər kəsin başqaları ilə birlikdə sərbəst toplaşmaq azadlığı Azərbaycan Respublikası Konstitusiyasının 49-cu maddəsi ilə təmin edilmiş və Ulu Öndər, Ümummilli Liderimiz Heydər Əliyevin 13 noyabr 1998-ci il tarixdə imzaladığı Sərəncamla təsdiq edilmiş "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə həyata keçirilməyə başlanılmışdır. Bu Qanun vətəndaşların sərbəst toplaşmaq azadlığını təmin edir və toplantıların qanunauyğun həyata keçirilməsi üçün müvafiq tədbirlərin görülməsini zəruri hesab edir.

Bütövlükdə götürüldükdə, toplantıların, yığıncaqların, mitinqlərin, nümayiş və küçə yürüşlərinin təşkili və keçirilməsi üçün "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu əsas hüquqi sənəd hesab olunur və bütün toplantılar bu Qanunun tələblərinə uyğun hazırlanıb həyata keçirilir.

"Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun həyata keçirilməsi ilə bağlı təxirəsalınmaz vəzifələrin icrasını təmin etmək məqsədilə

**QƏRARA ALIRAM:**

**1.** Siyasi partiya, ictimai birlik, həmkarlar ittifaqı təşkilatı və təşəbbüs qrupu tərəfindən rayon ərazisində toplantı keçirmək məqsədilə müraciət olunduqda həmin toplantıların keçirilməsi üçün yerlər - 1 açıq (Qazax şəhər stadionu) və 1 qapalı (Qazax şəhər mədəniyyət evi) ayrılsın.

**2.** Məntəqələrdə təşviqat materialları üçün yerlər ayrılsın (siyahı əlavə olunur).

**3.** Rayon ərazisində toplantıların keçirildiyi vaxt ictimai asayişin mühafizəsi ilə bağlı müvafiq tədbirlərin həyata keçirilməsi rayon Polis şöbəsinin rəisi Natiq Həsənova tapşırılsın.

**4.** Sərəncam "Güyəzən" rayon qəzetində dərc edilsin.

**5.** Sərəncamın icrasına nəzarəti öz üzərimə götürürəm.

**Rəcəb Babaşov,**
**Qazax rayon İcra Hakimiyyətinin Başçısı**

***23 avqust 2016-cı il***

**Qazax rayon İcra Hakimiyyəti Başçısının 9-21/88 nömrəli 23 avqust 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmişdir**

## Yaşayış məntəqələrində təşviqat materialları üçün ayrılmış yerlərin SİYAHISI

| S/№ | Yaşayış məntəqələrinin adı | Təşviqat materialı üçün ayrılmış yer | Qeyd |
|---|---|---|---|
| 1. | Qazax şəhəri | Qazax şəhər N.Vəliyev adına 5 №-li orta məktəbin binasının qarşısı<br>Qazax şəhər Qaratel adına əsas məktəb binasının qarşısı<br>Qazax şəhər Şahmat məktəbi binasının qarşısı<br>Qazax şəhər 4 №-li orta məktəbin binasının qarşısı<br>Qazax şəhər S.Əfəndiyev adına 1 №-li orta məktəbin binasının qarşısı<br>Qazax şəhər M.Hüseyn adına humanitar və təbiət təmayüllü məktəb liseyin binasının qarşısı<br>Qazax şəhər S.Vurğun adına 2 №-li orta məktəbin binasının qarşısı<br>Qazax şəhər Sosial İqtisadi Kollecinin binasının qarşısı | |
| 2. | Daş Salahlı kəndi | Daş Salahlı kənd mədəniyyət evinin binasının qarşısı<br>Daş Salahlı kənd Ş.Cəbiyev adına 2 №-li orta məktəbin binasının qarşısı<br>Daş Salahlı kənd 3 №-li uşaq bağçası binasının qarşısı<br>Daş Salahlı kənd A.Əmilov adına 1№-li orta məktəbin binasının qarşısı | |
| 3. | Quşçu Ayrım kəndi | Quşçu Ayrım kənd Y.Mirzəyev adına orta məktəbin binasının qarşısı | |
| 4. | Alpout kəndi | Alpout kənd orta məktəbin binasının qarşısı | |
| 5. | Dəmirçilər kəndi | Dəmirçilər kənd E.Qurbanov adına orta məktəbin binasının qarşısı | |
| 6. | Ürkməzli kəndi | Ürkməzli kənd orta məktəbin binasının qarşısı | |
| 7. | Aslanbəyli kəndi | Aslanbəyli kənd bələdiyyəsinin binasının qarşısı<br>Aslanbəyli kənd orta məktəbin binasının qarşısı | |
| 8. | Qaymaqlı kəndi | Qaymaqlı kənd orta məktəbin binasının qarşısı | |
| 9. | Kəmərli kəndi | Kəmərli kənd A.Kəmərli adına orta məktəbin binasının qarşısı<br>Kəmərli kənd A.Bəbirov adına Xanbağı orta məktəbin binasının qarşısı | |
| 10. | Yuxarı Salahlı kəndi | Yuxarı Salahlı kənd mədəniyyət evinin binasının qarşısı<br>Yuxarı Salahlı kənd Z.Mahmudov orta məktəbin binasının qarşısı | |
| 11. | Orta Salahlı kəndi | Orta Salahlı kənd S.Hacıyev adına orta məktəbin binasının qarşısı | |
| 12. | Fərəhli kəndi | Fərəhli kənd əsas məktəbin binasının qarşısı | |
| 13. | Birinci Şıxlı kəndi | Birinci Şıxlı kənd mədəniyyət evinin binasının qarşısı<br>Birinci Şıxlı kənd M.Həsənov adına orta məktəbin binasının qarşısı | |
| 14. | İkinci Şıxlı kəndi | İkinci Şıxlı kənd Ş.Nəsibova adına Sarıvəlli orta məktəbin binasının qarşısı<br>İkinci Şıxlı kənd V.Musayev adına Dəllər orta məktəbin binasının qarşısı | |
| 15. | Aşağı Salahlı kəndi | Aşağı Salahlı kənd orta məktəbin binasının qarşısı | |
| 16. | Hüseynbəyli kəndi | Hüseynbəyli kənd A.Əliyev adına orta məktəbin binasının qarşısı | |
| 17. | Canalı kəndi | Canalı kənd orta məktəbin binasının qarşısı | |
| 18. | Kosalar kəndi | Kosalar kənd klub binasının qarşısı | |
| | | Kosalar kənd İsmayıl Şıxlı adına orta məktəbin binasının qarşısı | |
| 19. | Qazaxbəyli kəndi | Qazaxbəyli kənd orta məktəbin binasının qarşısı | |
| 20. | Ağköynək kəndi | Ağköynək kənd orta məktəbin binasının qarşısı<br>Ağköynək kənd həkim məntəqəsinin qarşısı | |
| 21. | Xanlıqlar kəndi | Xanlıqlar kənd orta məktəbin binasının qarşısı<br>Xanlıqlar kənd əsas məktəbin binasını qarşısı | |
| 22. | Çaylı kəndi | Çaylı kənd 1 №-li orta məktəbin binasının qarşısı<br>Çaylı kənd 2 №-li orta məktəbin binasının qarşısı<br>Çaylı kənd 2 №-li orta məktəbin binasının qarşısı | |
| 23. | Kommuna kəndi | Kommuna kənd orta məktəbin binasının qarşısı | |
| 24. | Qarapapaq kəndi | Qarapapaq kənd əsas məktəbin binasının qarşısı | |
| 25. | Cəfərli kəndi | Cəfərli kənd orta məktəbin binasının qarşısı | |
| 26. | Yuxarı Əskipara | Qazax şəhər S.Vurğun adına 2 №-li orta məktəbin binasının qarşısı | |
| 27. | Aşağı Əskipara | Qazax şəhər S.Əfəndiyev adına 1 №-li orta məktəbin binasının qarşısı | |
| 28. | Barxudarlı | Qazax şəhər 5 №-li orta məktəbin binasının qarşısı | |
| | **CƏMİ:** | **48 təşviqat materialı üçün ayrılmış yer** | |

# Əhali ilə görüşlər səmərə verir

**Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov fəaliyyətə başladığı ilk gündən şəhər və kəndlərdə sakinlərlə görüşlər keçirir. Görüşlər zamanı əhalini narahat edən problemlər və qayğılar yerindəcə öyrənilir və həlli istiqamətində konkret tapşırıqlar verilir.**



Avqust ayının 22-də rayonun Aslanbəyli, Qaymaqlı, Kəmərli və Yuxarı Salahlı kənd sakinləri ilə görüşdən sonra rayon rəhbərliyi növbəti görüşlərini avqust ayının 24-də Orta Salahlı, Aşağı Salahlı, Qazaxbəyli və Kosalar kəndlərində keçirmiş, əhalini narahat edən problemlər və görülmüş işlər barədə yerindəcə məlumatlar öyrənmişdir.

Orta Salahlı kəndində əhali ilə keçirilən görüşdə Rəcəb Babaşov kənd camaatını salamlamış və bildirmişdir ki, sizinlə görüşməkdə əsas məqsədimiz kənd təsərrüfatında aparılan işlərin, texnikanın, əkinin vəziyyəti və təsərrüfat ilinin yekunu ilə tanış olmaqdır.

Sonra Rəcəb Babaşov Qazax şəhərində və kəndlərdə aparılan tikinti, quruculuq və abadlıq işləri barədə görüş iştirakçılarına məlumat verərək bildirmişdir ki, hazırda "Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq Qazax rayonunda tikinti-abadlıq və quruculuq işləri sürətlə davam edir. Qarabağ və şəhid ailələri üçün tikilən 14 fərdi yaşayış evlərindən 8-i istifadəyə verilmiş, 6 yaşayış evlərinin tikintisi yaxın vaxtlarda başa çatdırılacaqdır.

Qazax Tarix Diyarşünaslıq Muzeyinin müasir tələblərə cavab verən yeni binasının tikintisi yekunlaşmaq üzrədir. Qazax rayonunun girişindəki "Obelisk"-də və ətrafında geniş abadlıq işləri aparılmış, yeni yaşıllıqlar salınmış və yeni işıqlandırma sistemi quraşdırılmışdır. Həmin ərazidə Azərbaycanın ilk hərbi təyyarəçisi Fərrux ağa Qayıbovun xatirəsinə təyyarə abidəsi ucaldılmışdır.

Bayraq meydanında, N.Nərimanov yaşayış massivində hündürlüyü 14,3 metr olan qüllənin ətrafında, Qazax şəhərindəki və rayonun Yuxarı Salahlı kəndindəki Şəhidlər Xiyabanlarında, Daş Salahlı kəndindəki şəhidlər qəbiristanlığında əsaslı təmir və geniş abadlıq-quruculuq işləri aparılmışdır.

Bakı-Tbilisi avtomobil yolunun Qazax rayonunun ərazisindən keçən hissəsində abadlıq işləri aparılmış, yeni ağac və gül kolları əkilmişdir.

Qazax şəhərində küçələrin təmiri və məhəllədaxili yollar asfaltlanmış, H.Əliyev prospekti boyunca və Bakı küçəsində yaşayış evlərinin dam örtükləri dəyişdirilmiş, evlərin fasad hissəsində və hasarlarda abadlıq işləri aparılmış, yol kənarı yaşayış evlərinin giriş hissəsində darvazalar quraşdırılmışdır.

Qazax şəhərində və kəndlərdə sipləşmə işləri davam edir. Daş Salahlı kədində 110/35/6 kv-luq Daş Salahlı yarımstansiyanın tikintisi işləri gedir. Qazax şəhərində mərkəzi bazarın ətrafında-H.Əliyev prospekti, Azadlıq, M.Carçıyev və M.V.Vidadi küçələrində antisanitariya və natəmizlik yaradan, əhalinin hərəkətinə mane olan və məhdudlaşdıran küçə ticarəti aradan qaldırılmışdır. Bu məqsədlə mərkəzi kolxoz bazarında lazımi şərait yaradılmış, ticarətlə məşğul olan insanlar bazarın içərisinə köçürülmüşdür.

Bundan başqa, "Çinar dibi" adlanan yaşayış massivində yeni alternativ bazar yaradılaraq fəaliyyətə başlamışdır. Hazırda kənd təsərrüfatı yarmarkasının keçirilməsi üçün hazırlıq işləri gedir. Ağköynək kəndi ərazisində 1,5 hektar sahədə məişət tullantıları üçün ərazi ayrılmış, orada təmizlik işləri aparılmış və ətrafı dəmir torla hasarlanmışdır. Azərbaycan Respublikası Prezidentinin 19 avqust 2016-cı il tarixli sərəncamı ilə 6000 nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən Qazax-Kosalar avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan



"Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə 3,0 (üç) milyon manat ayrılmışdır. Qazax-Kosalar avtomobil yolunun tikintisinə başlanılmış və işlər başa çatmaq üzrədir. Məzəm və Quşçu Ayrım kənd sakinlərinin rayon mərkəzinə təhlükəsiz gediş və gəlişini təmin etmək məqsədilə Qazax-Quşçu Ayrım avtomobil yolunun Alpout kəndi ilə Quşçu Ayrım kəndini birləşdirən hissəsində alternativ olaraq ikinci yolun çəkilişi işlərinə başlanılmışdır. Yuxarı Salahlı kəndində 480 şagird yerlik kənd tam orta məktəbində bərpa-gücləndirmə və əsaslı təmir işləri, Çaylı kənd 1 saylı tam orta məktəbində isə əsaslı təmir işləri aparılır. Rayonun Daş Salahlı kəndində və Carçıoğlu şirkəti tərəfindən rayonun Xanlıqlar kəndində hər birinin illik gücü 50 min ton olan Əhəng zavodlarının, Birinci Şıxlı kəndində "Birinci Şıxlı kəndli fermer təsərrüfatı" MMC-nin tikintisi işləri davam edir. Rayonun Birinci Şıxlı kəndində 220 başlıq heyvandarlıq fermasının tikintisi, lizinq yolu ilə gətirilmiş 75 baş cins mal-qaranın sayının 100 baş artırılması məqsədilə Qaymaqlı kəndində fəaliyyət göstərən fermada genişləndirmə işləri aparılmışdır. Orta Salahlı kəndində aylıq gücü 30 min baş olan quşçuluq fermasının tikintisi işləri davam etdirilir. Rayonun Ermənistanla ən yaxın məsafədə yerləşən sərhəd kəndlərinin (Bala Cəfərli və Məzəm) əhalisinin təhlükəsizliyini təmin etmək məqsədilə sərhəd boyu 3 metr hündürlükdə 1300 p/m istinad divarları çəkilmişdir. Quşçu Ayrım kənd əhalisinin təhlükəsizliyini təmin etmək məqsədi ilə yaşayış evlərinin düşmən mövqelərinə baxan pəncərələrinin hörülməsi üçün kənd sakinlərinə tikinti materialları verilmişdir. Bala Cəfərli və Xanlıqlar kəndlərinin hər birində bir imkansız ailə üçün yaşayış evinin tikintisi başa çatdırılmışdır. Quşçu Ayrım və Ürkməzli kəndlərinin hər birində bir şəhid ailəsi və Dəmirçilər kəndində bir Qarabağ müharibəsi əlilinin evlərində əsaslı təmir və əlavə tikinti işlərinə başlanılmışdır. Hazırda işlər davam etdirilir.

Sonra kənd təsərrüfatında aparılan işlərlə bağlı Orta Salahlı kənd İnzibati Ərazi Dairəsi üzrə nümayəndəsinin müavini Ramin Nəsibova söz verilmişdir. O, bildirmişdir ki, Orta Salahlı kəndinin 1768 nəfər əhalisi, 458 təsərrüfatı vardır. Şəhid ailələri 2, Qarabağ əlilləri 1 nəfərdir. Kənddə 7 traktor, 2 kotan, 4 mala, 3 dırmıq, 2 toxumsəpən, 3 otbiçən və 1 otbağlayan texnika vardır. Kənddə 320 hektar sahədə buğda əkilmiş, hər hektardan 33,3 sentner məhsul götürülmüşdür. İribuynuzlu mal-qaranın baş sayı 1405, xırdabuynuzlular isə 5600 baş olmuşdur. Son 3 ayda enerji, qaz, su təminatı yaxşı olmuşdur. XI sinfi 4 nəfər bitirmiş, 2 nəfər ali məktəbə sənəd vermiş və 1 nəfər qəbul olmuşdur.

Bu il taxıl sahələri şəxsi kombaynlar vasitəsilə hər hektarı 35-40 manata biçilmişdir. Kənd əhalisinin problemlərinin həllinə kömək məqsədilə işçi qrupu yaradılmışdır.

Sonra Rəcəb Babaşov çıxışını davam etdirmiş və bildirmişdir ki, bu gün Qazax rayonuna 80 adda maşın-mexanizm lazımdır. Təəssüf ki, bu gün rayonda cəmi 40 adda texnika vardır ki, onun da 19-u tam yararsızdır. Qalır 11-I, onun da 4-ü tam gücü ilə işləmir. Bu məsələ respublikanın aidiyyatı qurumlarının rəhbərləri tərəfindən rayonda araşdırılmış və həqiqətən də 80 adda maşın-mexanizmə ehtiyac olduğu müəyyən edilmişdir. Odur ki, oktyabr ayının əvvəllərinədək aqrolizinq xəttilə rayona 80 adda maşın-mexanizm veriləcəkdir və biz bu problemi birdəfəlik həll edəcəyik. Lizinq yolu ilə kombayn almaq istəyənlər təklif verib ala bilərlər.





Bizi hər addımda narahat edən əsas məsələlərdən biri də toxumun düzgün seçilməməsidir. Bu il bu işlərə də diqqət artırılacaqdır. Keyfiyyətli toxumla bağlı müəyyən əlaqələr yaratmışıq və bu məsələ ilə bağlı müxtəlif yerlərə adam göndərmişik. Bazarda meyvə-tərəvəz satışında da heç bir problem olmayacaqdır. Bunun üçün də bir sıra qurumlarla əlaqələr yaratmışıq, kartof, soğan, kələm əkənlərə bu sahədə heç bir çətinlik yaranmayacaqdır. Bazarlarda məhsulun əldən-ələ keçməməsi üçün həm təzə, həm də köhnə bazarlarda lazımi işlər aparılmışdır. Sərəncamla yaradılmış işçi qruplarının fəaliyyəti nəticəsində bazar ətrafı ərazidə küçə ticarəti ləğv edilmişdir. Həmin ərazilərə asfalt örtüyü qoyulmuş, yeni işıq sistemi qurulmuşdur. Bazarın içində abadlıq, səliqə-sahman işləri aparılmış, yeni daxıllar qoyulmuşdur. Biz köhnə bazarın ətrafında səliqə-sahman yarada bildik, ona görə ki, bizim burada heç bir məqsədimiz yox idi. Məqsədimiz yalnız insanların əziyyət çəkməməyi, şəhərimizin təmiz olması idi. Biz indi kənd təsərrüfatı yarmarkası keçirməyə hazırlaşırıq. Köhnə bazara alternativ yaratdığımız təzə bazarda da hər cür şərait yaradılmışdır.

Din məsələlərində diqqətli olmaq lazımdır. Məscidlər dindaraların deyil, xalqın istifadəsində olmalıdır. Məscid Allahın evidir. Oraya gəlir mənbəyi kimi baxılmamalıdır.

Rayonda təhsil sahəsində də uğurlarımız olmuşdur. Ali məktəblərə iş verən məzunlardan 58 nəfəri 500-dən yuxarı və 1 nəfər məzunumuz isə 700 bal toplamışdır. Lakin bəzi kəndlərimizdə vəziyyət yaxşı deyildir. Məsələn, Orta Salahlı, Aşağı Salahlı, Qazaxbəyli kənd orta məktəblərində ali məktəblərə qəbulun səviyyəsi qənaətbəxş olmamışdır. Odur ki, bu sahəyə diqqət daha da artırılmalıdır və dərslərə davamiyyət 100 faiz olmalıdır. Uşaq bağçalarına diqqəti artırmalıyıq. Balaca körpələrin yeməyinə uzanan əllər kəsilməlidir. Səhiyyə xidmətinin səviyyəsi yüksəlməlidir. Narkomaniya tam aradan qaldırılmalıdır. Çalışaq gənclərimizi bu və digər bəlalardan qoruyaq. Bu sahədə rayonda ardıcıl tədbirlər həyata keçirilir.

Biz çıxışları da dinləmək istəyirik. Kənddə olan vəziyyət, edilmiş müraciətlər, qəbula gəlmiş vətəndaşlar, onları narahat edən məsələləri onların özlərindən eşitmək istəyirik.

Kənd sakinlərindən Nəbi Babacanov, Firdovsi Xiyalov və başqaları öz çıxışlarında kənddə elə bir ciddi problem olmadığını bildirdilər. Söylədilər ki, işıq, qaz, su, yol problemləri yoxdur. Lalə Xasayeva isə kürəkəninin işlə təmin olunmasına köməklik göstərilməsini xahiş etdi.

Aşağı Salahlı kəndində keçirilən görüşdə rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov bildirdi ki, bu mənim sizinlə üçüncü görüşümdür. Kəndinizdəki problemlərin həlli üçün tədbirlər görülür və biz bu prosesi davam etdirəcəyik. Görüşdə kənd İnzibati Ərazi Dairəsi üzrə nümayəndəsi Yaşar Əfəndiyev kənd təsərrüfatı və kənddəki vəziyyətlə bağlı məlumat verərək bildirdi ki, kəndin əhalisi 1889 nəfər, təsərrüfatların sayı 453-dür. Kənddə 6 şəhid ailəsi, 1 nəfər Qarabağ əlili yaşayır. Ümumi torpaq sahəsi 2448, əkinə yaralı sahə 2019 hektardır. Kənddə 13 traktor, 4 kotan, 5 dırmıq, 4 otbiçən və 5 otbağlayan vardır. 2016-cı ildə 200 hektar sahədə buğda əkilmiş, məhsuldarlıq 35,7 sentner, taxıl biçini hər hektar üçün 30-35 manat olmuşdur. İribuynuzlu mal-qaranın sayı 1848 baş, xırdabuynuzlular isə 9135 baş olmuşdur. Kənddə enerji, qaz, su təminatı ilə bağlı heç bir problem yoxdur. Əhali suvarma suyu ilə tam təmin olunmuşdur. Bu il kənddə XI sinfi 19 nəfər bitirmiş, 6 nəfər ali məktəbə sənəd vermiş, 2 nəfər qəbul olmuşdur.

Kənd sakini İlham Nəbiyev çıxışında bildirdi ki, artezianlarımız balansa götürülərək istifadəyə verilmişdir. Azərbaycanın ilk hərbi təyyarəçisi Fərrux ağa Qayıbovun xatirəsinə yaradılmış təyyarə şəhərimizin ən yaxşı yerlərindən birində ucaldılmışdır.

İlham Nəbiyev bütün bunlara görə rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova kənd əhalisi adından öz dərin minnətdarlığını bildirmişdir.

Kənd əhalisi ilə görüşdən sonra rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov kənddəki körpələr evi-uşaq bağçasına baxmışdır.

Günün üçüncü görüşü Qazaxbəyli kənd sakinləri ilə oldu. Kənd sakinləri rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşovu böyük sevgi və mehribanlıqla qarşıladılar.

İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov çıxış edərək bildirdi ki, görüşünüzə gəlməkdə məqsədimiz kənd təsərrüfatı və digər sahələrdəki vəziyyəti öyrənməkdir. Məsələ ilə bağlı kənd İnzibati Ərazi Dairəsi üzrə nümayəndəsi Ramin Nəsibov məlumat verərək bildirdi ki, kəndin əhalisi 1267 nəfər, təsərrüfatların sayı 370-dir. Kənddə 1 şəhid ailəsi, 7 nəfər Qarabağ əlili yaşayır. Ümumi torpaq sahəsi 729, əkin sahəsi 559 hektardır. Kənddə 6 traktor, 2 kotan, 2 mala, 3 dırmıq və 3 otbiçən vardır. Şumun 1 hektarı dəmyə torpaqlarda 35, suvarılan torpaqlarda isə 40 manata aparılır. Buğda sahəsi 145 hektardır və məhsuldarlıq 33,3 sentner olmuşdur. İribuynuzlu mal-qara 720 baş, xırdabuynuzlular 1490 baş olmuşdur. Kənddə işıq, qaz, içməli su, suvarma suyu ilə bağlı problem yoxdur. XI sinfi 6 nəfər bitirib. 2 nəfər ali məktəbə sənəd verib, 1 nəfər qəbul olub.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov son üç ayda rayonda gedən tikinti,



abadlıq və quruculuq işlərindən danışdı. Sonra rayonda kənd təsərrüfatının maşın-mexanizmlərlə tam təmin olunması, yeni, yüksək reproduksiyalı toxum əldə edilməsi, yeni iş yerlərinin yaradılması, əldə olunmuş kənd təsərrüfatı məhsullarının satışının təşkil edilməsi, bu məqsədlə soyuducu kameraların qurulması və digər məsələlərlə bağlı geniş məlumat verdi.

Kənd sakinlərindən Yasin Abayev, Fəxrəddin Qasımov və başqaları çıxış edərək onlar üçün yaradılmış şəraitə görə Ölkə Prezidenti İlham Əliyevə və rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova minnətdarlıqlarını bildirdilər.

Kosalar kəndində keçirilən görüş də çox işgüzar və səmərəli oldu. Kənd sakinləri tərəfindən yüksək səmimiyyət və böyük hörmətlə qarşılanan Rəcəb Babaşov görüşə gəlmiş kənd sakinlərinə üzünü tutaraq bildirdi ki, mən öz doğma kəndimə gəlmişəm. Sizin bütün uğurlarınız, rahat yaşamağınız məni sevindirir. Siz bunların hamısına layiqsiniz. Bu gün sizinlə görüşməkdə məqsədimiz kənd təsərrüfatındakı vəziyyəti öyrənmək, sizə lazım olan köməyi göstərməkdir. Biz bilirik ki, rayonun kənd təsərrüfatı maşın-mexanizmlərinə ciddi ehtiyacı var. Hazırda onların sayı azdır. Olanlar isə nasaz vəziyyətdədir. Yeni buğda sortlarının alınmasına ehtiyac var. Biz bunların hamısını həll edəcəyik.

Bu il kəndinizdə 190 hektar sahədə buğda əkilib. Məhsuldarlıq 47,4 sentner olub. İndiyədək 2017-ci ilin məhsulu üçün 11,5 hektar sahədə şum aparılıb. Mal-qaranın baş sayı 1456, xırdabuynuzlu davarların sayı isə 4520 baş olmuşdur. Enerji, qaz, su təminatında və eləcə də digər sahələrdə problemlər yoxdur. Ən böyük probleminiz isə Ölkə Prezidenti İlham Əliyev cənablarının diqqət və qayğısı sayəsində artıq həll olunmuşdur. Uzunluğu 11 km olan Qazax-Kosalar avtomobil yolunun yüksək keyfiyyətlə yenidən tikilməsi artıq başa çatmaq üzrədir. Hazırda kənd təsərrüfatında aparılan işlər sürətləndirilməlidir. Payızlıq şum əkini az aparılmışdır. Hər iş optimal müddətdə başa çatdırılmalıdır.

Təhsilin, səhiyyənin səviyyəsi yüksəldilməli və bağçalara nəzarət gücləndirilməlidir. Bu il Kosalar kənd orta məktəbini bitirmiş 33 nəfər məzundan 17 nəfəri ali məktəblərə iş vermişdir. Onlardan isə cəmi 9 nəfər ali məktəbə qəbul olunmuşdur. Bu göstərici qənaətbəxş deyildir. Kənd sakinlərindən Rəfiqə Məmmədova, Barat Alıyev, Cavanşir Rüstəmov, Tariyel Nəsibov və başqaları çıxış edərək kənddə heç bir problem olmadıqlarını bildirdilər. Bütün problemlərin son 3 ayda aradan qaldırıldığını söylədilər. Bütün bunlara görə ölkə Prezidenti İlham Əliyevə və rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova öz dərin minnətdarlıqlarını bildirdilər.

Kosalar kənd sakinləri Rəcəb Babaşovu kəndin fəxri vətəndaşı seçdiklərini söylədilər.

Sonda Rəcəb Babaşov söylədi ki, xalqın, əli qabarlı zəhmətkeş insanların bütün müraciətlərinə həssaslıqla yanaşmaq lazımdır. Möhtərəm Prezident İlham Əliyev cənablarının dəfələrlə söylədiyi kimi, biz hamımız xalqın xidmətçiləriyik.

## 2016-cı il üçün Qazax rayon İcra Hakimiyyəti Başçısının aparatında vətəndaşların qəbulu cədvəli

| S/№-si | Qəbul edən şəxs | Tutduğu vəzifə | Qəbul günləri | Qəbul vaxtı |
|---|---|---|---|---|
| 1. | Babaşov Rəcəb Abas oğlu | Rayon İcra Hakimiyyətinin Başçısı | Hər həftənin V günü | $10^{00}$-dan |
| 2. | Nağdalıyev Fərman Məmməd oğlu | Rayon İcra Hakimiyyəti Başçısının birinci müavini | Hər həftənin I günü | $10^{00}$-dan |
| 3. | Musayev Tahir Xaliddin oğlu | Rayon İcra Hakimiyyəti Başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Hər həftənin II günü | $10^{00}$-dan |
| 4. | Həsənova Gulaya Ziyad qızı | Rayon İcra Hakimiyyəti Başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | Hər həftənin III günü | $10^{00}$-dan |
| 5. | Abışov Gündüz Fəxrəddin oğlu<br><br>Alıyev Məmməd Oruc oğlu<br><br>İsmayılov İlyaz Hümbət oğlu | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri<br><br>Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri<br><br>Hüquq şöbəsinin müdiri | Hər həftənin IV günü | $10^{00}$-dan |

***Qeyd:*** **1. Milli qəhrəmanlar və onların ailələri, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri digər imtiyazlı vətəndaşlar müraciət etdikdə dərhal qəbul edilirlər.**

**2. Rayon İcra Hakimiyyəti başçısının qəbul günləri bayram günlərinə düşdükdə qəbul növbəti iş gününə keçirilir.**

**3. Vətəndaşların qəbulu ilə bağlı əlaqə telefonları :**

**022) 295-31-55; (022) 295-23-35; qaynar xətt (022)295-56-70**

# M.P.Vaqifin poeziya günü keçirilmişdir

**Rayonumuzda Azərbaycanın görkəmli şairi Molla Pənah Vaqifin poeziya günləri ilə bağlı tədbir keçirilmişdir. Ədəbiyyat Muzeyində keçirilən tədbirdə idarə, müəssisə, təşkilat rəhbərləri, təhsil və mədəniyyət işçiləri, rayon ağsaqqalları, şair və yazıçılar iştirak etmişdir.**

Əvvəlcə, tədbir iştirakçıları Molla Vəli Vidadinin və Molla Pənah Vaqifin Qazaxdakı Mütəfəkkirlər parkındakı qoşa heykəllərini ziyarət edərək xatirəsini anmış və abidəsi önünə gül-çiçək dəstələri qoymuşlar.

Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal tədbiri giriş sözü ilə açaraq M.P.Vaqifin poeziya günləri barədə məlumat vermişdir.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov çıxış edərək bildirmişdir ki, bu gün biz böyük şairimiz, Molla Pənah Vaqifi yad etmək, onun büllur kimi saf, bal kimi şirin poeziyasından bəhs etmək üçün bir yerə toplaşmışıq. Vaqif elə bir söz ustadı olmuşdur ki, Azərbaycan ədəbiyyatında böyük dönüş yaratmış, xalq poeziyası ilə əruz vəznli şeirimiz arasında möhkəm bir körpü salmışdır. O, Azərbaycan ədəbi dilini elə cilalamışdır ki, özündən sonra gələn XIX əsr şairləri üçün yeni cığır açmış, böyük bir ədəbi məktəb yaratmışdır. İndi çox möhkəm bir inamla demək olar ki, əgər ədəbiyyatımızda Vaqif olmasaydı, şeirləri dillər əzbəri olmuş çox sayda şairimiz də olmazdı. Təsadüfi deyil ki, qüdrətli sənətkarımız Səməd Vurğun Azərbaycan dilinə "Vaqifin dili"- deyə müraciət edirdi. "Hər oxuyan Molla Pənah olmaz" - deyimi də Vaqifin şərəfinə söylənilmişdir.



Vaqif həm də ictimai xadim, Qarabağ xanı İbrahim xanın indiki ifadə ilə deyilsə xarici işlər naziri olmuşdur. Bu, ona dəlalət edir ki, Vaqif yalnız bədii yaradıcılıqla deyil, dövlət işləri ilə də yaxından məşğul olmuş, müxtəlif ictimai-siyasi məfkurələrin meydana çıxdığı bir dövrdə sayılıb-seçilən şəxsiyyət kimi şöhrət qazanmışdır. Vaqif şübhəsiz ki, hər şeydən əvvəl şair idi. Onu xalqa sevdirən gözəl qoşmaları, xalq şeiri üslubunda yazdığı digər şeirləridir. Zaman keçdikcə Molla Pənah Vaqifin xalqımız üçün miras qoyub getdiyi ədəbi irsi daha dərindən öyrəniləcək, onun poeziyasının qüdrəti nəsillərə nümunə olacaqdır.

Gələn il Vaqifin anadan olmasının 300 illiyi tamam olacaqdır. Bu yubileyin yüksək səviyyədə keçirilməsi üçün hər birimiz indidən hazırlaşmalıyıq. Bugünkü poeziya bayramını da həmin yubileyə bir hazırlıq hesab edirəm.

Sonra şairlərdən Ələddin İncəli, Süleyman Mustafaoğlu, Həvəskar, Mətanət Qüdsi, Qərib Mehdi, Zaməddin Ziyadoğlu, Elməddin Nicat, Zərəngiz Dəmiçiqızı, İsa Tovuzlu, Rüfət Axundlu, Qurban Həmidov, Ramiz Təmkin, gənc şairlərdən Şəhanə Aslanbəyli, Mahmud Məsim, Məhəmməd Şəmkirli, M.P.Vaqifin kötücəsi Vidadi Müftizadə, aşıqlardan Camoy Qurbanov, Samir Allahverdiyev və başqaları çıxış edərək M.P.Vaqifə həsr etdikləri şeirlərini söyləmiş və şairin şeirlərini müxtəlif saz havaları üstündə oxumuşlar.

**Elçin İSMAYIL**

# 26 sentyabr 2016-cı il Azərbaycan Respublikasında keçiriləcək ümumxalq səsverməsi (referendum) ilə əlaqədar olaraq 107 saylı Qazax seçki dairəsi üzrə seçki məntəqələrinin DİSLOKASİYASI

| Seçki məntəqələrinin nömrəsi (ardıcıllıqla) | Seçki məntəqələrinin yerləşdiyi yer (ünvan) | Binanın və otağın nömrəsi | Seçki məntəqəsinin hüdudları (seçki məntəqəsi yaşayış məntəqəsinin bir hissəsini əhatə etdikdə evlərin nömrələri nəzərə alınmaqla küçələrin adları göstərilir) | Seçicilərin sayı | Məntəqə seçki komissiyası sədrinin soyadı, adı, atasının adı | İş yeri, tutduğu vəzifə | Telefon nömrələri | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | İş | Ev |
| 1 | Qazax şəhər, N.Nərimanov qəs.4 | N.Vəliyev adına 5 saylı orta məktəb | N.Nərimanov qəsəbəsindəki bütün binalar və M.Nəsibov küç.N-1-49, Ə.Qədirov küçəsi 2-3-4 saylı binalar | 1306 | Hacıyev Mustafa Cəfər oğlu | Qazax rayon Mənzil İstismar Sahəsində komendant | 02229-5-41-17 | 02229-5-45-44 |
| 2 | Qazax şəhər, N.Nərimanov küç.41A | Qazax şəhər Qaratel adına əsas məktəbi | N.Nərimanov küçəsindəki bütün evlər,Tusi, Xətai, F.Qayıbov və A.Kəmərli küçəsində olan evlər, Ə.Şıxlınski küç.(çayın sol sahilindən Avtovağzalın yanından Azpetrola kimi), Ə.Qədirov küç. 1-dən 100-ə kimi olan evlər | 1479 | Bayramova Arzu Kərəm qızı | Qazax rayon Melioservisdə mühəndis | 02229-5-23-57 | ----------- |
| 3 | Qazax şəhər, Bakı küç.33 | Qazax şəhər Şahmat məktəbi | H.Əliyev pr.1-23;214, Azadlıq küç.1-81; 2-76 N-li evlər, Azadlıq küçəsi döngə 1-də 1-43; 2-36 N-li evlər, Bakı küç.1-49; 2-26; 1-20, Ə.Şıxlınski 2-16, Ş.Nəsibova 1-19; 2-22, F.Əhmədov 1-21; 2-22 N-li evlər | 1420 | Hacalıyev Hacımurad Sabir oğlu | Qazax rayon Su-Kanal idarəsində mühəndis | 02229-5-11-28 | 02229-5-27-65 |
| 4 | Qazax şəhər Ş.Xiyabanı küç.8 | Qazax şəhəri 4 saylı orta məktəb | Vaqif, Z.Tağıyev, Ş.Xiyabanı, Ş.Çobanov küçələri, Bakı küç.dən H.Əliyev pr.-ə kimi olan evlər, Ş.Xiyabanı daxil olmaqla Bakı küçəsi ev 21-dən dön. 1-2 daxil olmaqla, Vaqif küç.dən Vidadi küç.ə kimi | 1304 | Aşırov Məhəmməd Aşır oğlu | Qazax şəhər 4 saylı tam orta məktəbin direktoru | 02229 5-17-45 | ----------- |
| 5 | Qazax şəhəri Z.Tağıyev -27 | S.Əfəndiyev adına 1 saylı orta məktəb | H.Əliyev pr.25-83; 16-88, S.Vurğun küç.1-99; 2-108a, M.Hüseyn küç.1-82; 2-46, Vaqif 9-13; 28-40, Tağıyev 29-43; 22-46, Ş.Çobanov 5-11; 4-12, Ş.Xiyabanı 23-32; 20-34, Ağamalıoğlu 15-37; 30-50, M.Carçıyev 17-33; 24-56, Vidadi 15-29; 20-34 olan evlər | 1435 | Abdullayev Mübariz Kamal oğlu | Azərsığorta D.S Qazax rayon filialında direktor | 02229-5-20-33 | 02229-5-24-04 |
| 6 | Qazax şəhər, H.Əliyev pr.-154 | M.Hüseyn adına Humanitar və Təbiət fənlər təmaüllü məktəb-lisey | H.Əliyev pr. 85-125; 90-180, Bakı küç. 106-272, S.Vurğun 103-194, Nizami 6-50, M.Hüseyn 48-133, Ə.Süleymanov 33-34 | 1344 | Comərdova Tahirə Valodya qızı | Qazax şəhər M.Hüseyn adına humanitar və təbiət fənləri üzrə liseyin direktoru | 02229-5-20-88 | ----------- |
| 7 | Qazax şəhər, H.Əliyev pr.-158 | S.Vurğun adına 2 saylı orta məktəb | Hər iki hərbi şəhərcik Azadlıq 162-198; 205-269, Azadlıq 206; 208;208a, M.Hüseyn 86 dan axıradək, H.Əliyev pr.180-222; 137-159, Ə.Seyidov 4;7;36, Ə.Süleymanov 1-29 kimi | 1385 | Xanbabayeva Rəqsanə Fərrux qızı | Qazax şəhər 2 saylı orta məktəbin direktor müavini | 02229-5-28-39 | 02229-5-19-16 |
| 8 | Qazax şəhər, H.Əliyev pr.-177 | Qazax Dövlət Sosial-İqtisadi kolleci | Bakı küç.235-401; 234-400,Ə.Seyidov küç. Bütün binalar,H.Əliyev pr.161-169, yeni yaşayış massivindəki bütün binalar (təzə məhəllə)- Gəncə, A.Mustafayev, O.Sərvəlli, M.Əsədov, Qarabağ, Azərbaycan, T.İsmayılov, Xəqani, 20 yanvar, İ.Qayıbov, Koroğlu, 28 may, Natavan küçələri | 1422 | Əhmədov Fazil Hüseyn oğlu | Qazax Qaz İstismar Sahəsində Nəzarətçi-çilingər | 02229-5-03-99 | 02229-5-46-96 |
| 9 | Qazax şəhər, N.Nərimanov qəsəbəsi 4 | N.Vəliyev adına 5 saylı orta məktəb | Barxudarlı, Soflu və Xeyrımlı kəndlərini əhatə edir | 632 | Həsənov Yusif Qənbər oğlu | Fərdi təsərrüfatçı | 02229-5-47-73 | ------------ |
| 10 | Qazax rayon Daş Salahlı kəndi | Kənd mədəniyyət evi | F.Məmmədov küç.Qurbanov Valodun evindən Ə.Sofuoğlu küç. kimi kəndin aşağı hissəsi | 1463 | Əliyev Nemət Hacı oğlu | Qazax Şagirdlərin Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzinin direktoru | 02229 24-5-75 | 02229-28-1-12 |
| 11 | Qazax rayon Daş Salahlı kəndi | Kənd 2 saylı orta məktəb | Kənd xəstəxanasının yanından Mədəniyyət evinə kimi, F.Məmmədov küç.dən kəndin yuxarı hissəsi | 1483 | Cəfərli Tofiq Əkbər oğlu | Qazax rayon Daş Salahlı kənd 2 saylı orta məktəbdə müəllim | 02229-28-6-59 | 02229-28-5-53 |
| 12 | Qazax rayon Daş Salahlı kəndi | Kənd uşaq bağçası | F.Məmmədov küç.Əliyev Hidayətin evindən Gülüoğlu küç.kimi kəndin aşağı hissəsi | 1467 | Osmanov Məzahir İbrahim oğlu | Fərdi təsərrüfatçı | 02229-24-3-76 | 02229-28-1-72 |
| 13 | Qazax rayon Daş Salahlı kəndi | Kənd 1 saylı orta məktəb | Ə.Sofuoğlu küç.kəndin aşırlı hissəsi | 1460 | Abdullayeva Almara Səməd qızı | Fərdi təsərrüfatçı | 02229-28-4-96 | 02229-28-5-13 |
| 14 | Qazax rayon Ürkməzli kəndi | Kənd orta məktəbi | Bütün Ürkməzli kəndini əhatə edir | 767 | Əyyubov Yunis Rəşid oğlu | Fərdi təsərrüfatçı | 02229-25-2-45 | 02229-25-3-26 |
| 15 | Qazax rayon Quşçu Ayrım kəndi | Kənd orta məktəbi | Quşçu Ayrım, Məzəm kəndlərini əhatə edir | 934 | Nəbiyev Yusif Allahverən oğlu | Qazax rayon Yuxarı Əskipara kənd həkim məntəqəsində həkim | 02229-83-3-03 | 02229-83-3-27 |
| 16 | Qazax rayon Hüseynbəyli kəndi | Kənd orta məktəbi | Bütün Hüseynbəyli kəndini əhatə edir | 1176 | Abbasova Mahirə Mehralı qızı | Qazax rayon Hüseynbəyli kənd orta məktəbin direktoru | 02229-55-0-95 | 02229-55-3-09 |
| 18 | Qazax rayon Kosalar kəndi | Kənd orta məktəbi | Hasanlılar, Qopular, Aydınlılar, Qazbayramlı, Yekəvəllər məhəlləsi | 1384 | Alqazaxov Nazim Nizam oğlu | Qazax rayon Kosalar kənd orta məktəbində müəllim | 02229-35-3-23 | 02229-35-3-47 |
| 19 | Qazax rayon Kosalar kəndi | Kənd klubu | Aşağıdakı oba, İsəllər, Qurbanlı, Yetərlilər, orta məhəllə | 1398 | Nəsibov Fuad Hümbət oğlu | Qazax rayon Uşaq Gənclər idman məktəbində məşqçi müəllim | 02229-35-0-72 | ----------- |
| 20 | Qazax rayon Qazaxbəyli kəndi | Kənd orta məktəbi | Bütün Qazaxbəyli kəndini əhatə edir | 801 | Allahverdiyeva Gözəl Telman qızı | Qazax rayon Qazaxbəyli kənd uşaq bağçasının müdiri | 02229-33-5-42 | 02229-33-5-13 |
| 21 | Qazax rayon Orta Salahlı kəndi | Kənd orta məktəbi | Bütün Orta Salahlı kəndini əhatə edir | 1108 | Şahnəzərov Mahir Xıdır oğlu | Orta Salahlı kənd orta məktəbində riyaziyyat müəllimi | 02229-33-2-95 | 02229-33-1-03 |
| 22 | Qazax rayon Aşağı Salahlı kəndi | Kənd orta məktəbi | Bütün Aşağı Salahlı kəndini əhatə edir | 1211 | Alnaqov Cahangir Vidad oğlu | Qazax rayon Aşağı Salahlı kənd orta məktəbin direktoru | 02229-33-1-77 | 02229-33-3-46 |
| 23 | Qazax rayon Yuxarı Salahlı kəndi | Kənd mədəniyyət evi | Şaxvələd məhəlləsi | 1336 | Məmmədov Fərman Tavad oğlu | Qazax rayon Suvarma Sistemləri İdarəsində sahə rəisi | 02229-37-2-48 | 02229-37-2-99 |
| 24 | Qazax rayon Yuxarı Salahlı kəndi | Kənd orta məktəbi | Qayvalı məhəlləsi | 1322 | Abdullayev Haqverdi Kərim oğlu | Qazax rayon Yuxarı Salahlı kənd orta məktəbində müəllim | 02229-37-7-03 | 02229-37-5-72 |
| 25 | Qazax rayon Birinci Şıxlı kəndi | Kənd mədəniyyət evi | Yolun alt hissəsi Abdullayeva Fatmanın evindən Tomayeva Yaşmira Alı qızının evinədək, yolun üst hissəsi İdrisov Zabitin evindən Kazımov Şamilin evinədək | 1317 | Musayev Bayram Kamaləddin oğlu | Qazax rayon Elelktrik Şəbəkəsində mühəndis | 02229-26-6-24 | 02229-26-8-45 |
| 26 | Qazax rayon Birinci Şıxlı kəndi | Kənd tam orta məktəbi | Yolun alt hissəsi Tomayeva Yaşmira Alı qızının evindən Yusifov Azərin evinədək, yolun üst hissəsi Kazımov Şamilin Şəmistan oğlunun evindən Yusifov Miralay Nadir oğlunun evinədək | 1173 | Qocayev Məzahir Şahvələd oğlu | Qazax rayon Birinci Şıxlı kənd orta məktəbin direktoru | 02229-26-5-20 | 02229-26-6-61 |
| 27 | Qazax rayon İkinci Şıxlı kəndi | Kənd Sarıvəlli orta məktəbi | Kələşli, Askibaldırlı, Macallı, Mirzallı, Qazğallar, təzə məhəllə | 1065 | Qurbanov Rasim Paşa oğlu | Qazax rayon İkinci Şıxlı kənd Sarıvəlli orta məktəbində müəllim | 02229-22-2-46 | 02229-22-4-16 |
| 28 | Qazax rayon İkinci Şıxlı kəndi | Kənd Dəllər orta məktəbi | Mansırlı, Şəmmədli, Binnətli, Həvilli, Petilər, Hüseynoğlu, Oruclu, Abbaslı, təzə məhəllə | 1384 | Hüseynov Şəmiddin Həmid oğlu | Fərdi təsərrüfatçı | 02229-22-5-43 | 02229-22-2-63 |
| 29 | Qazax rayon Aslanbəyli kəndi | Kənd bələdiyyə binası | Düz kənd məhəlləsi, Bığıl dərəsi, təzə məhəllə, Təpəbaşı məhəllə, Yolobası məhəllə, | 1427 | Osmanova Xalidə İsmayıl qızı | Qazax rayon Aslanbəyli kənd orta məktəbində müəllimə | 02229-23-3-18 | 02229-23-7-52 |
| 30 | Qazax rayon Aslanbəyli kəndi | Kənd orta məktəbi | Çay qırağı məhəllə, Şəmmədli, Hüseyncanlı, Qaravəlilik məhəlləsi | 1408 | Süleymanov Vaqif Həsən oğlu | Qazax rayon Aslanbəyli kənd mədəniyyət evində bədii rəhbər | 02229-23-5-83 | 02229-23-4-24 |
| 31 | Qazax rayon Qaymaqlı kəndi | Kənd orta məktəbi | Bütün Qaymaqlı kəndini əhatə edir | 1272 | Əliyeva Məleykə Məhəd qızı | Qazax rayon Qaymaqlı kənd poçt şöbəsinin müdiri | 02229-27-3-05 | 02229-27-5-53 |
| 32 | Qazax rayon Kəmərli kəndi | Kənd orta məktəbi | Fərruxlu, Sadıxlı, Dəmirçilər, Balakənd məhəllələri | 1100 | Rəhimova Minara Məhəmməd qızı | Qazax rayon Kəmərli kənd orta məktəbin direktoru | 02229-21-2-90 | 02229-21-3-41 |
| 33 | Qazax rayon Kəmərli kəndi | Kənd Xanbağı orta məktəbi | Göyyolçular, Xanbağı, Dəllər, Bəbirli, Durmuşlu məhəllələri | 991 | Alcanov Tahir Hüseyn oğlu | Fərdi təsərrüfatçı | 02229-21-2-91 | 02229-21-2-92 |
| 34 | Qazax rayon Dəmirçilər kəndi | Kənd orta məktəbi | Bütün Dəmirçilər kəndini əhatə edir | 820 | Hüseynova Xanım Hidayət qızı | Qazax rayon Dəmirçilər kənd kitabxanasında kitabxanaçı | 02229-25-2-37 | 02229-25-1-25 |
| 35 | Qazax rayon Alpout kəndi | Kənd orta məktəbi | Bütün Alpout və Abbasbəyli kəndlərini əhatə edir | 732 | Abdullayev İsmayıl Paşa oğlu | Qazax rayon Alpout kənd orta məktəbinin direktoru | 02229-25-6-90 | 02229-25-6-38 |
| 36 | Qazax rayon Fərəhli kəndi | Kənd orta məktəbi | Bütün Fərəhli və Qızıl Hacılı kəndlərini əhatə edir | 759 | Ismayılov Qəzənfər Abdulla oğlu | Fərdi təsərrüfatçı | 02229-25-5-03 | 02229-25-7-12 |
| | **Cəmi :** | | | **43530** | | | | |

**Dairə seçki komissiyasının sədri: Xəyyam Salehov**

## Qazax "Təmiz şəhər" elan olunmuşdur

**Rayonumuzda tikinti-quruculuq işləri gündən-günə daha geniş vüsət alır. Şəhərimiz getdikcə daha da gözəlləşir, siması sözün yaxşı mənasında get-gedə dəyişir. Min bir zəhmət bahasına yaradılan bu gözəllik, yaşıllıq və abadlığı isə qorumaq lazımdır. Bundan ötrü hər bir rayon sakini öz şəhərinə, yaşadığı küçə və həyətə doğma münasibət bəsləməli, onun təmiz olması və saxlanması üçün əlindən gələni əsirgəməməlidir.**

Abadlığı, yaşıllığı, səliqə-sahmanı yaratmaq nə qədər çətindirsə, onu qoruyub saxlamaq ondan da çətindir. Odur ki, hər bir qazaxlı öz şəhərinə doğma evi kimi baxmalı, onun təmiz və səliqə-sahmanlı olmasına çalışmalıdır.

Şəhərimizin səliqəli və təmiz olması üçün rayon İcra Hakimiyyəti Qazaxı "Təmiz şəhər" elan etmişdir. Artıq bu istiqamətdə bir çox addımlar atılmışdır. İcra Aparatı tərəfindən şəhərdəki bütün evlərə bununla əlaqədar bildirişlər göndərilmiş, sakinlərə iməclik və digər təmizləyici tədbirlərin həyata keçirilməsi tövsiyə olunmuşdur.

Görülən bu tədbirlər öz nəticəsini vermiş və şəhər sakinləri bu ümumşəhər işinə həvəslə qoşulmuşlar. Bununla əlaqədar ayrı-ayrı küçələrdə, idarə və müəssisələrin yerləşdiyi ərazilərdə təmizlik tədbirləri həyata keçirilmiş, həmin yaşayış sahələrində səliqə-sahman yaradılmışdır. Görülən bu işlərin nəticəsidir ki, bu gün Qazaxın prospekt və küçələrində, park və bağça-bağlarında bir təmizlk hökm sürür. Sakinlər öz doğma şəhərlərini təmiz saxlamaq üçün əllərindən gələni əsirgəmirlər.

## Damcılıda 60 ildən sonra arxeoloji tədqiqatlar aparılıb

***Azərbaycan ərazisində daş dövrü üzrə ilk dəfə arxeoloji tədqiqatlar 1953-cü ildə aparılmışdır. Həmin ilin payız ayında Rusiyadan dəvət olunmuş paleolit dövrü üzrə mütəxəssis S.N.Zamyatnin və yerli arxeoloq M.Hüseynov axtarışa çıxaraq Avey dağında Damcılı bulağı ətrafında kəşfiyyat xarakterli qazıntı işləri aparmışlar. Nəticəyə gəlmişlər ki, burada arxeoloji dövrlər, yəni orta paleolit, yuxarı paleolit, mezeolit və neolit qalıqları qarışıq halda olmuşdur. M.Hüseynov qeyd etmişdir ki, 1957-ci ilin yaz, payız aylarında apardığı qazıntıda arxeoloji dövrlərin materialları təxminən iki metr dərində gil təbəqəsinin üstündə qalmışdır. Həmin dövrdə bu ərazidə 2 minə yaxın alət tapılmışdır. Ümumiyyətlə isə 7 minə yaxın tullantı, nüvə qalıqları əldə olunmuşdur.***

2015-ci ilin yayında Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə Yaponiyanın Tokio Universitetinin daş dövrü mütəxəssisi professor Yoşihiro Nişiakinin rəhbərliyi ilə böyük bir heyət Avey dağı ətəklərində kəşfiyyat xarakterli axtarış aparmaq üçün qoruq ərazisinə dəvət olunmuşdur. Bir həftəlik axtarışlardan sonra Avey dağında, Damcılı mağara düşərgəsinin ətrafında (Damcılı mağarası da daxil olmaqla) dünya əhəmiyyətli arxeoloji irsi kompleks tədqiq etmək üçün 3 tərəfli beynəlxalq memorandum imzalanmışdır. Bu memorandum Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "Avey" Dövlət Tarix-Mədəniyyət qoruğu, AMEA tərəfindən Arxeologiya və Etnoqrafiya İnstitutu, Yaponiya hökuməti tərəfindən Yaponiyanın Tokio Universiteti Universitet Muzeyi arasında bağlanmışdır.

2016-cı ilin avqustunda "Avey" DTMQ-nın ərazisində yerləşən dünya əhəmiyyətli Damcılı mağara düşərgəsində arxeoloji qazıntılara başlanılmışdır. Kəşfiyyat xarakterli 10-a yaxın müxtəlif istiqamətlərdə qazıntı işləri aparılmışdır. Yaponiyalı və yerli arxeoloqların birgə işlədiyi ərazinin 4 metr dərinliyində qazıntı işləri aparılarkən orta əsrlərə, tunc dövrünün sonuna aid, daha dərində isə neolit dövrü qalıqları, ocaq yerləri, fauna nümunələri (sümüklər), təxminən yarım metr dərində lal təbəqədən aşağıda isə orta paleolit dövrlərinin son mərhələsini əks etdirən qəlpə, nüvə tullantıları və alət nümunələri əldə olunmuşdur. Damcılıda tapılan maddi-mədəniyyət nümunələrinin dövrlərinin müəyyənləşdirilməsi üçün Yaponiya laboratoriyalarına göndərilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan ərazisində bir neçə ildir tədqiqatlar aparan daş dövrü üzrə mütəxəssisləşmiş yaponiyalı professor Yoşihiro Nişiaki qoruq ərazisindən tapılan alətlərin Azərbaycanın digər ərazilərindən tapılan alətlərə nisbətən daha qədim olduğunu düşünür. İlkin arxeoloji qazıntıların nəticəsinə əsasən demək olar ki, Damcılıda elmə yararlı kifayət qədər materiallar əldə edilmişdir. Beynəlxalq ekspedisiyanın məqsədi ərazinin qədim insan məskəni olmasını təsdiqləmək, bundan başqa neolitdən əvvəlki dövrlərə aid maddi sübutlar əldə etməkdir. Qazıntılar zamanı buna nail olundu.

Növbəti ilin yayında tədqiqatlar daha geniş sahədə davam etdiriləcək. Gələn ilin arxeoloji tədqiqatlar zamanı Qazax rayonu ərazisində yerləşən ali təhsil ocaqlarının tələbələrinin, qoruq əməkdaşlarının və gənc mütəxəssislərin də bu tədqiqatlara cəlb olunması nəzərdə tutulur.

# "GÖYƏZƏN.AZ" informasiya portalı fəaliyyətə başlamışdır

**XXI əsr informasiya əsridir desək, yanılmarıq. Bu yüzilliyin ən qabarıq cəhəti informasiya yaymaq, əldə etmək və əhalini məlumatlarla təmin etməkdir. Ona görə də bu gün dünyada necə deyərlər, informasiya müharibəsi gedir. Bu müharibəni aparan isə dünyanın müxtəlif ölkələrində yaradılmış informasiya portalları, xəbər agentlikləri və televiziya kanallarıdır. Bu gün onların arasında kim daha birinci, kim daha operativ, kim daha dəqiq informasiya əldə edəcək və ötürəcək birinciliyi uğrunda mübarizə gedir.**

Azərbaycan da dünyanın bir hissəsi olmaqla informasiya və texnologiya sahəsində öncül yerlərdən birini tutur. Ölkəmizdə baş verən hər hansı bir yenilik, hadisə və digər xəbər və materiallar müxtəlif kütləvi informasiya vasitələri ilə bütün dünyaya yayımlanır. Dünyanın harasında və hansı ölkəsində yaşamasından asılı olmayaraq müxtəlif ölkələrin və xalqların nümayəndələri Azərbaycan haqqında istənilən məlumatı internet və ya televiziya vasitəsilə əldə edə bilirlər.

Respublikamızın ən öncül və inkişaf etməkdə olan rayonlarından biri olan Qazaxda bütün sahələrdə tikinti-quruculuq işləri həyata keçirilir, rayonumuz gündən-günə gözəlləşir. Bu gün istər kənd təsərrüfatı, istər sənaye və istərsə də həyatın digər sahələrində bir irəliləyiş, bir tərəqqi və bir oyanış vardır. Həyata keçirilən işlərin sürətli və ahəngdar getməsinin nəticəsidir ki, rayonumuz başdan-başa yeniliklərlə doludur. Onu da qeyd edək ki, bu tikinti-quruculuq işləri təkcə rayon mərkəzində deyil, eyni zamanda rayonumuzun bütün kəndlərində gedir. Bütün bunların nəticəsidir ki, rayonumuzdakı yenilikləri mütəmadi olaraq işıqlandıran doğma




"Göyəzən" qəzetinin bir baş redaktoru kimi etiraf edim ki, qəzet bütün yenilikləri öz səhifələrində dərc edib çatdıra bilmir.

Eyni zamanda, respublikamızın müxtəlif yerlərində fəaliyyət göstərən müxtəlif informasiya portalları, saytları, eləcə də qəzet və jurnalları rayonumuz haqqında müfəssəl və operativ məlumatlar ala bilmirlər. Nəticədə rayonumuzda görülən tikinti-quruculuq işləri mətbuatda yüksək şəkildə işıqlandırılmır və respublika əhalisi rayonumuzda gedən işlər barədə geniş məlumat əldə edə bilmirlər. Digər tərəfdən, bəzi kütləvi informasiya vasitələrində Qazax haqqında həqiqətə uyğun olmayan məlumatlar dərc olunur və respublika əhalisinə düzgün informasiya verilmir. Bu da son nəticədə məlumatsızlıq və dezinformasiyanın yaranmasına səbəb olur.

Bütün bunları nəzərə alaraq rayonumuzla bağlı yeni məlumat mənbəyi yaratmağı qərara aldıq. Ona görə də "Göyəzən" qəzetinin yeni saytı yaradılmışdır. Yeni informasiya mənbəyi də qəzetin adını daşıyır. Artıq sentyabr ayından etibarən "GÖYƏZƏN.AZ" informasiya portalı sizlərin ixtiyarındadır. Bununla da rayonumuzun informasiya portalı dünya internet aləminə qoşulmuşdur. İndi yer kürəsinin istənilən yerində və istənilən ölkəsində internetdə "GÖYƏZƏN.AZ" yazmaqla rayonumuz haqqında ətraflı məlumat əldə etmək, rayonumuzda görülən işlər haqqında müfəssəl, doğru və düzgün informasiya öyrənmək olar. Bir sözlə, "GÖYƏZƏN.AZ" informasiya portalı Qazax rayonu haqqında ilk və dəqiq informasiya mənbəyidir. Odur ki, Qazax rayonu haqqında məlumat almaq istəyənlər adı qeyd olunan portala müraciət edə və doğru informasiya götürə bilərlər.

Bəli, bu gündən etibarən informasiya dünyasına "GÖYƏZƏN.AZ" informasiya portalı daxil olur. Siz portalda qeyd olunduğu kimi, goyezenaz@mail.ru emaili vasitəsi ilə bizə sizi maraqlandıran suallarla müraciət edə, material göndərə bilərsiniz. Eyni zamanda portalın (055) 741-00-01 nömrəsi ilə də bizimlə əlaqə saxlaya bilərsiniz.

***"GÖYƏZƏN.AZ" informasiya portalının işçi qrupu***

# 2016-cı ilin yanvar-iyun aylarında Qazax rayonunun sosial-iqtisadi inkişafının makroiqtisadi göstəriciləri

**2016-cı ilin yanvar-iyun aylarında ölkədə istehsal edilmiş ümumi daxili məhsulun həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,4 faiz azalaraq 27002,3 milyon manata çatmışdır.**

Eyni zamanda informasiya və rabitə sahələrində əlavə dəyər 13,7 faiz, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrində 3,3 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində 3,1 faiz, emal sənayesində 2,5 faiz, mədənçıxarma sənayesində 2,3 faiz, ticarət və nəqliyyat vasitələrinin təmiri sahələrində 1,9 faiz artmışdır. Cari ilin altı ayında istehsal olunmuş ümumi daxili məhsulun 34,8 faizi neft-qaz sektorunun, 65,2 faizi isə qeyri-neft sektorunun payına düşmüşdür. Bu dövrdə əhalinin hər nəfərinə düşən ümumi daxili məhsul 2809,7 manata bərabər olmuşdur. Respublika iqtisadiyyatının əsas sahələrində irəliləyiş olduğu kimi rayonun iqtisadiyyatının əsas sahələrində də irəliləyişlər mövcud olmuşdur. Rayon iqtisadiyyatının əsas göstəriciləri cədvəldə qeyd olunduğu kimidir:

**min manatla**

| Göstəricinin adı | 2016-cı ilin yanvar-iyun ayı | 2016-cı ilin yanvar-iyun ayı 2015-cı ilin yanvar-iyun ayına nisbətən faizlə |
|---|---|---|
| Ümumi məhsul buraxılışı | 65643,9 | 97,4 |
| Sənaye məhsulunun (işlərin xidmətlərin) ümumi həcmi | 6505,5 | 93,1 |
| Əsas kapitala yönəldilən investisiyalar | 8049,0 | 61.6 |
| Kənd təsərrüfatının ümumi məhsulu | 22942,4 | 107,6 |
| Nəqliyyat sektorunda yük daşınması, min ton | 743,0 | 104,1 |
| Nəqliyyat sektorunda sərnişin daşınması, min. sərnişin | 7513,0 | 104,8 |
| Poçt və rabitə xidmətlərinin həcmi | 550,0 | 105,4 |
| Pərakəndə əmtəə dövriyyəsi | 25442,0 | 101,6 |
| Əhaliyə göstərilən ödənişli xidmətlər | 10890,0 | 105,8 |
| Bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı (manatla) | 265,3 | 101,1 |

Cədvəldən göründüyü kimi ümumi məhsul buraxılışı keçən ilin eyni dövrü ilə müqayisədə 2,6 faiz azalmışdır. Yarımil ərzində bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 265,3 manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövründəkindən 1,1 faiz çoxdur.

## ƏHALİ

İlin əvvəlindən rayon əhalisinin sayı 0,5 faiz artaraq 95141 nəfərə çatmışdır. Əhalinin hər bir kvadrat kilometrə olan sıxlığı 137 nəfər olmuşdur. Rayon əhalisinin 21501nəfəri şəhər, 73640 nəfəri isə kənd sakinləridir. Ümumi sayın 49,8 faizi kişilərin, 50,2 faizi isə qadınların payına düşür. Ədliyyə Nazirliyinin rayon qeydiyyat şöbəsi tərəfindən cari ilin altı ayı ərzində 773 nəfər doğulan körpə qeydə alınmış və bu göstərici əhalinin hər 1000 nəfərinə 8,2 təşkil etmişdir. 2016-cı ilin yanvar-iyun aylarında 367 nəfər ölüm halı qeydə alınmışdır. Təbii artım 406 nəfər olmuşdur. Cari ilin altı ayı ərzində qeydiyyat şöbəsi tərəfindən 305 nikah və 55 boşanma halları qeydə alınmışdır. Əhalinin hər 1000 nəfərinə nikahların sayı 3,2, boşanmaların sayı isə 0,6 olmuşdur. Cari ilin yanvar-iyun aylarında rayona daimi yaşamaq üçün 144 nəfər gələn qeydə alınmışdır. Rayondan gedən isə qeydə alınmamışdır. Miqrasiya artımı 144 nəfər təşkil etmişdir.

## KƏND TƏSƏRRÜFATI

Rayon iqtisadiyyatının əsas sahələrindən biri də kənd təsərrüfatıdır. Rayonun iqtisadiyyatında tərəvəzçilik, taxılçılıq, heyvandarlıq aparıcı rol oynayır. Rayonun istifadəsində olan kənd təsərrüfatına yararlı torpaq sahəsi onun ərazisinin 66,9 faizini təşkil edir. Torpaq islahatı nəticəsində 15568 ailə 24268 hektar torpaq payına sahib olmuşdur. Orta hesabla hər ailəyə 1,6 hektar torpaq sahəsi verilmişdir. Rayonda uğurla aparılan aqrar islahatlar nəticəsində 19 sovxoz və bir kökəltmə məntəqəsi ləğv edilmiş, onlara məxsus torpaq sahəsi və əmlak əhaliyə paylanmışdır. Eyni zamanda ötən dövr ərzində müxtəlif təşkilatı hüquqi formalı 119 yeni kənd təsərrüfatı müəssisəsi yaradılmışdır. İqtisadiyyatın bazar münasibətlərinə keçdiyi bir şəraitdə sənayeni xammalla, əhalini isə ərzaqla təmin etmək üçün ölkəmizdə kənd təsərrüfatı sahəsini daha da inkişaf etdirmək ən əhəmiyyətli və vacib şərtlərdən biridir. Kənd təsərrüfatının əsas sahələrindən biri bitkiçilikdir. Qazax rayonu üzrə 2016-cı ilin məhsulu üçün 14895 hektar sahədə payızlıq və yazlıq bitkilər əkilmişdir ki, bu da keçən ilə nisbətən 1410 hektar çox olmuşdur. Əkilmiş sahənin 7782 hektarı payızlıq taxıl olmuşdur. Bu sahənin 5559 hektarı buğda, 2240 hektarı arpa sahəsidir. Keçən ilə nisbətən 1394 hektar payızlıq buğda, 1455 hektar payızlıq arpa sahəsi artıq səpilmişdir. 2016-cı ilin məhsulu üçün 127,5 hektar sahədə yazlıq dənlilər səpilmişdir ki, bunun da 21 hektarı arpa, 86,5 hektarı vələmir, 20 hektarı dənli paxlalılardır. 2016-cı ilin məhsulu üçün 7926,5 hektar (qarğıdalıdan başqa) dənlilər və dənli paxlalılar biçiləcək sahə vardır. Bu da keçən ilə nisbətən 1851,5 hektar çoxdur. 2087 hektar sahədə yazlıq bitkilər əkilmişdir. Bunun 324 hektarı qarğıdalı, 21 hektarı arpa, 86,5 hektarı vələmir, 20 hektarı dənli paxlalılar, 77 hektarı texniki bitkilər, 433 hektarı kartof, 435 hektarı tərəvəz, 34,5 hektarı bostan, 656 hektarı isə cari il yoncasıdır.

Keçən illə müqayisədə yazlıq bitkilər 295 hektar və ya 12,4 faiz azalmışdır. Əkinlərin hamısı əhali təsərrüfatlarında əkilmişdir. Əhali təsərrüfatlarında cari ildə 656 hektar sahədə yonca əkilmişdir. Bu da keçən illə müqayisədə 31hektar az olmuşdur. Keçən illə müqayisədə 54 hektar tərəvəz az səpilmişdir. Tərəvəzin 36 hektarı kələm, 123,5 hektarı xiyar, 203,5 hektarı pomidor, 1 hektarı xörək üçün yerkökü, 3 hektarı baş soğan, 1 hektarı sarımsaq, 67 hektar isə sair tərəvəzlər təşkil etmişdir. 2016-cı ilin birinci yarımilində heyvandarlıq məhsulları istehsalı aşağıdakı cədvəldə göründüyü kimidir:

| S/N | Məhsulun adı | Ölçü vahidi | 2016-cı ilin yanvar-iyun ayı | 2015-ci ilin yanvar-iyun ayı | Fərq +- |
|---|---|---|---|---|---|
| 1 | Ət (diri çəkidə) | ton | 2739 | 2633 | +106 |
| 2 | Süd | ton | 15519 | 14878 | +641 |
| 3 | Yumurta | min ədəd | 5970 | 5671 | +299 |

Cədvəldən göründüyü kimi keçən ilin müvafiq dövrünə nisbətən ət istehsalı 106 ton, süd istehsalı 641 ton, yumurta istehsalı 299 min ədəd artmışdır. Bu artım əsasən əhali təsərrüfatlarının hesabına olmuşdur. Mal-qaranın baş sayı aşağıdakı cədvəldəki kimidir:

| | ölçü vahidi | 01.01.2002 | 01.01.2013 | 01.07.2015 | 01.07.2016 | 01.07.2016 01.07.2015-ci ilə nisbətən faizlə |
|---|---|---|---|---|---|---|
| İribuynuzlu mal-qara | Baş | 29938 | 30019 | 30011 | 30275 | 100,9 |
| o cümlədən inək və camışlar | Baş | 15497 | 15611 | 15956 | 16056 | 100,6 |
| Qoyun və keçilər | Baş | 152614 | 144928 | 137580 | 141890 | 103,1 |

## SƏNAYE

2016-cı ilin yanvar-iyun aylarında rayonun sənaye təşkilatlarında istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 6,9 faiz azalaraq 6505,5 min manat təşkil etmişdir. İstehsal edilmiş məhsulun 3543,5 min manatı, 54,4 faizi dövlət sektorunun, 2692 min manatı, 45,5 faizi isə qeyri-dövlət sektorunun payına düşür. Ümumi istehsalın 47,4 faizi sənaye məhsulunun istehsalı, 52,6 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır. Məhsulun 200 min manatlığı fiziki şəxslər tərəfindən istehsal olunmuşdur. İstehsal edilmiş məhsulun çox hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 iyul 2016-cı il tarixinə 1004,3 min manatlıq hazır məhsul olmuşdur.

Mədənçıxarma sənayesində istehsalın dəyəri 2139,8 min manat olmaqla əvvəlki ilin yanvar-iyun ayına nisbətən 30,1 faiz artmışdır. Sahənin əsas məhsulu olan əmtəəlik bentonit gili 12794 ton, tikinti daşı isə 9220 ton təşkil etmişdir. Bentonit gili istehsalı 8,5 faiz artmış, tikinti daşı istehsalı isə 17,0 faiz azalmışdır. Rayonda 2016-cı ilin 1-ci yarımilində ildə iki gil istehsalı müəssisəsi fəaliyyət göstərmişdir və 2002,8 min manatlıq məhsul istehsal olunmuşdur. Tikinti daşı istehsal edən müəssisələr tərəfindən istehsal olunan məhsulun 137,0 min manat olmuşdur. Bu seksiyada fiziki şəxslər tərəfindən 50 min manatlıq məhsul istehsal olmuşdur. C seksiyasına, emal sənayesinə aid olan müəssisələr tərəfindən 808,5 min manatlıq məhsul istehsal olmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir. Bu ümumi məhsul istehsalının 12,4 faizini təşkil edir. Emal sənayesində istehsal olunmuş məhsulun və göstərilmiş xidmətlərin həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 42,6 faiz azalmışdır. 2016-cı ilin 1-ci yarımilində 69,5 min manatlıq dondurulmuş meyvə və tərəvəz, 6,0 min manatlıq xalça, 436,7 min manatlıq mebel, 150,0 min manatlıq çörək istehsal olunmuşdur. Fiziki şəxslər tərəfindən 150,0 min manatlıq sənaye məhsulu istehsal olmuşdur. Emal sənayesində keçən ilin müfaviq dövrü ilə müqayisədə konservləşdirilmiş meyvə istehsalı artmış, mebel istehsalı 61,4 faiz azalmış, xalça istehsalı 6,2 faiz azalmışdır. Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməşi və təchizatı sektorunda altı ay ərzində 3271,9 min manat dəyərində xidmətlər göstərilmişdir və əvvəlki ilin müfaviq dövrü ilə müqayisədə 11,5 faiz azalma müşahidə olunmuşdur. E seksiyasına daxil olan su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal edilmiş məhsulların həcmi 18,5 faiz artaraq 285,3 min manat təşkil etmişdir. Bu məhsul istehsalının 4,5 faizini təşkil edir. Bu məbləğin 171,5 min manatı su satışından əldə olunan gəlirdi. Bu seksiyada 113,8 min manatlıq kommunal xidmətlər göstərilmişdir. İstehsal olunmuş məhsulun hamısı rayonda fəaliyyət göstərən sənaye müəsisələrinin öz istehsalıdır. Sənaye müəssisələrinin anbarlarında 641,6 min manatlıq gil, 155,0 min manatlıq isə təmiz spirt, 207,7 min manatlıq isə konservləşdirilmiş meyvə, tərəvəz qalığı olmuşdur. 2016-cı ilin 1-ci yarımilində rayonda müəssisələr tərəfindən 9220 ton tikinti daşı istehsal olunmuş və hamısı satılmışdır. Əmtəəlik gil istehsalı həmin dövrdə 12794 ton olmuşdur. 1-ci yarımildə 16833 ton gil satılmış və 2016-cı ilin iyul ayının 1-i tarixinə əvvəlki dövrlədə yaranmış ehtiyatlarda nəzərə alınmaqla 43333,8 ton gil qalığı olmuşdur. 2016-cı ilin yanvar-iyun ayı ərzində 350 ton çörək, 146,8 min dekalitr qazlı su istehsal olunmuşdur. Hesabat dövründə şərab istehsalı olmamışdır. 2016-cı il iyul ayının 1-ə əvvəlki dövrlərdə yaranmış 10684 dekalitr təmiz spirt qalığı olmuşdur. 1-ci yarımildə 60 kvadrat metr xalça istehsal olunub satılmışdır. Həmin dövrdə mebel istehsalı ilə məşğul olan müəssisələr tərəfindən 368 ədəd yataq mebel dəsti, 140 ədəd qonaq otağı üçün mebel, 368 ədəd yumşaq mebel dəsti istehsal olunub satılmışdır. Hesabat dövründə rayonda 67,8 ton konservləşmiş meyvə, tərəvəz istehsal olnmuş, 35,7 ton məhsul satılmış, dövrün axırına əvvəlki dövrlərdə yaranmış ehtiyatlarda nəzərə alınmaqla 114,7 ton məhsul qalığı olmuşdur. Yanvar-iyun aylarında rayonda 40500 min kilovat elektirik enerjisi, 52600 min kub qaz bölüşdürülmüş, 526,6 min kub su istehsal olunub satılmışdır.

2016-cı ilin 1-ci yarımilində rayonun sənaye müəssisələrində çalışan muzdlu işçilərin orta siyahı sayı 914 nəfər təşkil etmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 11,1 faiz çoxdur. İşçilərin 354 nəfəri dövlət sektorunda, 560 nəfəri isə qeyri-dövlət sektorunda çalışır. İşçilərin 165 nəfəri mədənçıxarma, 394 nəfəri emal, 223 nəfəri elektrik enerjisi, qaz, buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 132 nəfəri isə su təchizatı, tullantıların təmizlənməsi və emalı bölmələrində çalışmışdır. Sənaye müəssisələrində orta aylıq əməkhaqqı 16,9 faiz azalaraq 304,6 manat olmuşdur. Orta aylıq əməkhaqqı dövlət sektorunda 10,1 faiz artaraq 396,7 manat, qeyri-dövlət sektorunda isə 35,3 faiz azalaraq 241,0 manat olmuşdur. Sənaye müəssisələrinə yarımil ərzində 405 nəfər işçi qəbul edilmiş, 137 nəfər işdən öz xahişi ilə çıxarılmışdır.

## ƏSASLI TİKİNTİ

Cari ilin ilk 6 ayı ərzində rayonda istifadəyə verilmiş əsas fondların dəyəri 37354,0 min manat olmuşdur. İqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas 8049 min manat vəsait yönəldilmişdir. Ümumi vəsaitin 90.8 faizi tikinti quraşdırma işlərinə sərf edilmişdir. İstifadəyə verilmiş əsas fond Qazaxbəyli kəndi ərazisində tikilib istifadəyə verilmiş məcburi köçkün şəhərciyidir. Buraya 304 mənzili olan 10 ədəd 4 mərtəbəli yaşayış binası, məktəb, bağça, mədəniyyət evi və sair yardımçı binalar daxildir.

Altı ay ərzində 86 fərdi yaşayış evi tikilib istifadəyə verilmişdir ki, bunun da 52-i kənd yerindədir. Yaşayış evlərinin ümumi sahəsi 9932,1 kv/m, yaşayış sahəsi isə 4660,9 təşkil etmişdir. İstifadəyə verilmiş yaşayış evlərinin dəyəri 740 min manatdır. Yarımil ərzində ümumi sahəsi 386,5 kv.metr olan 8 mənzil özəlləşdirilmişdir.

Tikinti müəssisələri öz gücləri ilə 1279,5 min manatlıq iş görmüşdür ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 88 faiz təşkil edir. 2016-cı ilin yanvar-iyun aylarında tikinti sektorunda işçilərin orta siyahı sayı 151 nəfər olmuş orta aylıq əməkhaqqı 11,5 faiz artaraq 239.9 manat təşkil etmişdir.

## İSTEHLAK BAZARI

Yarımil ərzində Qazax rayonunda 3 iri, 65 kiçik ticarət, xidmət müəssisəsi, 180 ticarət yerinə malik kənd təsərrüfatı məhsulları bazarı və hüquqi şəxs yaratmadan fərdi sahibkarlıqla məşğul olan 2580 fiziki şəxs ticarət fəaliyyəti göstərmişdir. Yarımil ərzində istehlakçıların tələbatlarının ödənilməsi məqsədilə rayonun istehlak bazarında satılmış məhsulların dəyəri 42303.8 min manat olmaqla 2015-ci ilin müfaviq dövrü ilə müqayisədə 11.9 faiz artmışdır. Əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi 2015-ci ilin eyni dövrü ilə müqayisədə 5.8 faiz artaraq 10890 min manat olmuşdur. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə pərakəndə əmtəə dövriyyəsinin fiziki həcm indeksi 101.6 faiz olmuşdur.

Rayonda pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmi 72900 min manat olmuşdur. Pərakəndə əmtəə dövriyyəsinin 11,6 faiz hüquqi şəxslərin 58,0 faiz kənd təsərrüfatı bazarının, əşya və qarışıq mallar yarmarkasının, 30,4 faiz hüquqi şəxs yaratmadan sahibkarlıqla məşğul olan fiziki şəxslər tərəfindən yaranmışdır. Yarımil ərzində rayon əhalisinin hər bir nəfəri tərəfindən ticarət şəbəkələrindən 766,2 manatlıq istehlak malları alınmışdır. Hər bir sakinə 114,4 manatlıq pullu xidmət göstərilmişdir. Hüquqi və fiziki şəxslər tərəfindən rayon əhalisinə 1010 min manatlıq iaşə xidmətləri göstərilmişdir. İaşə xidmətlərinin həcmi keçən ilin eyni dövrünə nisbətən 17,4 faiz artmışdır. İaşə xidmətinin 60,5 min manatı kiçik müəssisələr tərəfindən, 949,5 min manatı isə fiziki şəxslər tərəfindən göstərilmişdir.

## NƏQLİYYAT

Rayonun iqtisadiyyatında nəqliyyatın rolu artmaqdadır. Yarımil ərzində nəqliyyat müəssisələri və fiziki şəxslər tərəfindən əldə olunmuş göstəricilər qənaətbəxşdir. Yarımil ərzində nəqliyyat sektorunda məhsul buraxılışı fiziki şəxslər üzrə 2896 min manat olmuşdur ki, bu da ümumi məhsul buraxılışının 4,4 faizini təşkil etmişdir. Keçən ilin müvafiq dövründə bu göstərici 2725 min manat olmuşdur. Yarımil ərzində yük daşınmasının həcmi 743 min ton olmuş, bu da əvvəlki dövrlə müqayisədə 4,1 faiz çoxdur. Rüb ərzində 7513 min nəfər sərnişin daşınmışdır. Bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 4,8 faiz çoxdur

## RABİTƏ

Yarımil ərzində rabitə sektorunda məhsul buraxılışının faktiki qiymətlərlə həcmi 550,0 min manat olmuşdur. Rabitədən əldə edilmiş gəlirin 486,8 min manatı və ya 88,5 faizi rayon əhalisinə göstərilmiş xidmətlərin hesabına yaranmışdır. Araşdırılan dövrdə əldə edilmiş gəlirin 16,2 faizi şəhərlərarası və beynəlxalq rabitədən, 19,4 faizi şəhər telefon rabitəsindən, 24,6 faizi kənd telefon rabitəsindən, 39,8 faizi isə internet xidmətindən əldə edilmişdir. Əhalidən əldə edilmiş gəlirin həcminin 15,3 faizi şəhərlərarası və beynəlxalq telefon rabitəsindən, 15,9 faizi şəhər telefon rabitəsindən, 25,5 faizi kənd telefon rabitəsindən, 43,3 faizi internet xidmətindən olmuşdur. Yarımil ərzində poçt rabitəsindən 157,3 min manatlıq gəlir əldə olumuşdur ki, bunun da 138,4 min manatı əhali tərəfindən ödənilmiş xidmətin dəyəridir. Altı ay ərzində 24927 sifarişli məktub və banderolların göndərişi həyata keçirilmişdir. Daxil olan sifarişli məktub və banderolların sayı isə 35443 ədəd olmuşdur. Poçt müəssisələri tərəfindən 315 ədəd poçt bağlaması göndərilmiş, 99 bağlama isə daxil olmuşdur.

## ƏMƏK BAZARI

2016-cı ilin birinci yarımili ərzində rayonda 48,0 min nəfər iqtisadi fəal əhali olmuşdur. İqtisadi fəal əhalinin 47,4 min nəfəri iqtisadiyyatda məşğul olanlar 703 nəfəri isə məşğulluq orqanlarında rəsmi qeydiyyatda olan işsizlərdir. Məşğul olan əhalinin 11580 nəfəri və yaxud 24,4 faiz muzdla işləyir. Muzdla işləyənlərin 3265 nəfəri maddi istehsal sahələrində, 8315 nəfəri isə xidmət sahələrində çalışır. Mülkiyyət növləri üzrə muzdla işləyən işçilərin 72,3 faiz dövlət, 27,7 faiz qeyri-dövlət mülkiyyətnə məxsus subyektlərdir.

İqtisadi fəaliyyət növlərinə uyğun olaraq muzdla işləyən işçilərin 5,0 faizi kənd təsərrüfatında, 5,9 faizi sənayedə, 1,2 faizi tikintidə, 2,9 faizi topdan və pərakəndə ticarətdə, 6,6 faizi nəqliyyat və rabitədə, 1,0 faizi maliyyə vasitəçiliyində, 5,9 faizi dövlət idarəetməsi və məcburi sosial təminatda, 39,8 faizi təhsildə, 20,2 faizi səhiyyədə, 9,3 faizi kommunal və sosial xidmətlərində, 2,2 faizi digər fəaliyyət sahələrində çalışmışdır.

2016-cı ilin birinci yarımilində rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2015-ci ilin müvafiq dövrünə nisbətən 1,1 faiz artaraq 265,3 manat təşkil etmişdir. Dövlət müəssisələrində çalışanların əmək haqları 254,6 manat, özəl müəssisələrdə çalışanların əmək haqları isə 275,2 manat olmuşdur. Mədənçıxarma sənayesində, maliyyə və sığorta fəaliyyəti sahəsində orta aylıq əməkhaqqı rayon üzrə orta göstəricidən yüksək olmuşdur.

## YENİ İŞ YERLƏRİNİN AÇILMASI

"Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq rayonda yeni iş yerlərinin açılması ardıcıl olaraq davam edir. 2003-cü ildən 2016-cı ilin ikinci rübünün sonunadək rayonda 9519 daimi olmaqla 11737 yeni iş yeri açılmışdır. 2016-cı ilin birinci yarımili ərzində 1081 yeni iş yeri açılmışdır ki, bunun da 1011-i daimi iş yeri, 70-i isə müvəqqəti iş yeridir. 2016-cı ilin 2-ci rübündə 378 yeni iş yeri açılmışdır. Bunun 358-i daimi iş yeri, 20-si isə müvəqqəti iş yeridir.

***Faiq PAŞAYEV,***
***rayon statistika idarəsinin rəisi***

## İTMİŞDİR

**Adıgözəlov Vilayət İsrafil oğlunun** adına verilmiş **JN – 0003, KOD 50100078** nömrəli torpağa mülkiyyət hüququna dair **Dövlət Aktı** itdiyi üçün etibarsız sayılır.

**Qasımov Qabil Əli oğlunun** adına verilmiş gizir **hərbi vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

**Əmirov Elşad Firuddin oğlunun** adına verilmiş zabit vəsiqəsi **MN-0050111** olan **hərbi vəsiqə** itdiyi üçün etibarsız sayılır.

Baş redaktor:
**ELÇİN İSMAYIL**

TƏSİSÇİ:
QAZAX RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

ÜNVAN:
QAZAX ŞƏHƏRİ,
H.Z.TAĞIYEV KÜÇƏSİ 20
TELEFON: 5-02-00, (baş redaktor)
5-12-27 (şöbələr)
MOB: (055) 621-03-53

KAPİTAL BANK
BANK HESAB
№ AZ69AİİB38060019443660233136
VÖEN: 4200134061 KOD: 200361
QEYDİYYAT №442
TİRAJ: 2200 SİFARİŞ: 2443

Məqalələrdəki faktlara görə müəlliflər cavabdehdir. Əlyazmalar geri qaytarılmır.

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib.
*Foto: Mehman Vələdov.*